# VOKALÇILARIN PROFESSOR BÜLBÜL ADINA BİRİNCİ BEYNƏLXALQ MÜSABİQƏSİNİN QALİBLƏRİNƏ MÜKAFAT VƏ DİPLOMLARIN TƏQDİM EDİLMƏSİ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN MƏRASİMDƏ ÇIXIŞI

*Azərbaycan Dövlət Opera və Balet Teatrı*

*1 dekabr 1997-ci il*

Mən sizin hamınızı bizim görkəmli müğənnimiz Bülbülün xatirəsinə həsr olunmuş müsabiqədə yüksək yer tutduğunuza görə təbrik edirəm. Bu, Azərbaycanda həmin qəbildən ilk müsabiqədir, bu, bizim üçün çox əlamətdar hadisədir və buna böyük əhəmiyyət veririk. Hesab edirəm bizim ictimaiyyətimiz çox məmnundur ki, on beş gündür müsabiqədə seçmə gedir. Siz finişə çıxaraq qalib gəlmiş, fəxri yerlər, prizlər, mükafatlar qazanmısınız. Ən başlıcası isə bu gün hamınız gözəl çıxış etdiniz.

Siz gördünüz ki, Azərbaycan dinləyiciləri klassik musiqini, yüksək vokal sənətini əvvəlki kimi yenə də sevirlər. Siz də bu gün təkcə salondakıları deyil, bütün respublikaya, - çünki bu gecə birbaşa translyasiya edilirdi, - böyük sevinc bəxş etdiniz. Buna görə sağ olun. Ümidvaram ki, bu hadisə Azərbaycanın mədəni həyatının məhz beynəlxalq müsabiqələr keçirilməsi istiqamətində daha da canlanmasının başlanğıcı olacaqdır. Bu gün öyrəndim ki, növbəti müsabiqəni üç ildən sonra - 2000-ci ildə keçirməyi qərara almısınız. Biz üç ildən sonra yeni istedadlarla və yəqin ki, sizinlə də görüşü gözləyəcəyik.

Sizi təbrik edirəm. Gözəl fəxri münsiflər heyətini və bizim sevimlimiz İrina Konstantinovna Arxipova başda olmaqla bu on beş gündə burada çalışanların hamısını təbrik edirəm. Sizə səadət, yeni yaradıcılıq uğurları arzulayıram.

**İ r i n a  A r x i p o v a:** Çox hörmətli Heydər Əliyeviç, respublikanın bu ağır dövründə incəsənətə, mədəniyyətə və müsabiqənin bütün iştirakçılarına göstərdiyiniz xüsusi diqqət və qayğıya görə Sizə dərin minnətdarlığımızı bildirirəm.